

Mən o qızın adını bilmədim. Amma ürəyimdə həmişə onu “İncə əl” deyib çağırmışam. Onun əlində möcüzə vardı! Sehr vardı əlinin toxunuşunda!

Onu harda və nə vaxt görməyimin indi heç bir əhəmiyyəti yoxdur. Bir dəfə mən ölkənin əhalisi az olan bir kəndinin içindən keçirdim. Axşam düşürdü. Gözlənilmədən. Piyada olduğuma görə inanmırdım ki,

# İncə, möcüzəli əl

*hekayə*

getmək istədiyim kəndə tezliklə çataram. Buna görə də gecəni keçirmək üçün bir sığınacaq axtarmağa başladım.

Mən bir evə yaxınlaşanda alatoranlıq getdikcə öz yerini qaranlığa verirdi. Bir evin pərdəsiz pəncərələrindən işıq gəlirdi, içəridə rahatlıqdan xəbər verirdi. Bu ev yoldan çox da uzaqda deyildi. Geri dönüb əyriüyrü darvazdan içəri keçdim. Darvazanın cəftəsi asanlıqla açıldı, taxta laylar aralandı. Evin eyvanından məni aralıdan görən incə bir qız mənim evə çatmağımı gözləyirdi.

Bu vaxt it hürdü. Darvazanın ağzınadaydı. İti aydınca görürdüm, üstümə cummaq istəyirdi. İt üstümə tullanmaq istəyəndə onun türklü boynuna bir incə əl toxundu, alçaqdan deyilən söz eşitdim:

- Qorxma! O sənə heç nə etməyəcək - qız dedi. Səs mənə çox şirin və doğma gəldi.

Bir az irəli gəldim. Ancaq cavan bir qızın vəhşi heyvan üzərində gücünə şübhə etdim. Qızın balaca əli hələ də itin boynunda idi. Hiss olunurdu ki, it mənim içəri girməyimlə barışmamışdı, qəzəblə mırıldayırdı.

- Get, Pələng, - qız itə dedi. Sözləri əmr kimi deməmdi, elə incə tonla dedi ki , it üzünü çevirib getdi, həyətdə görünməz oldu.

- O kimdir? - bir kişi kobud səslə soruşdu. İndi qapının ağzında bayaq it duran yerdə zəhmli bir kişi durmuşdu.

- Sən kimsən? Nə istəyirsən? - kişinin danışığında bir sərtlik və qadağa vardı. Bu dəfə qız əlni kişinin qoluna qoydu, yüngülcə ona sarı əyilib dedi:

- Burdan G. kəndinə neçə kilometrdir? - soruşdum. Başlanöğıcda gecəni keçirmək üçün bir yer axtardığımı bildirmədim.

- G. kəndinə? - kişi mızıldadı, ancaq indi bayaqki kimi kobud səslə yox.

- Burdan ora altı kilometr olar.

- Uzun məsafədir, mən burda heç kimi tanımıram. Həm də piyadayam, - dedim. - Gecəni keçirmək üçün mənə bir yer versəniz sizə minnətdar olaram.

Gördüm ki, qız əlini kişinin qolunun yuxarısına apardı. Nəhayət, əlini kişinin çiyninə qoydu, ona bir az da qısıldı.

- İçəri keçin. Sizin üçün bir yer taparıq.

Kişinin üzündəki dəyişiklik məni təəccübləndirdi.

Geniş bir otağa girdim. Burda odun sobası vardı. Sobanın yanında iki kök qadın oturmuşdu. Məni görən



kimi dönüb baxdılar, “xoş gəldin” də deməmdilər. Orta yaşlı bir qadın stol arxasında oturmuşdu, iki uşaq isə döşəmənin üstünə pişik balasıyla oynayırdı.

- Ana, qərib adamdır, - darvaza ağzında məni kobud qarşılayan kişi dedi. - O, bir gecə qalmağa yer istəyir.

- Bizim ev mehmanxana deyil, - kök qadın dedi.

- Mən bunu bilirəm, madam, - dedim - Axşam düşdü, burdan G. kəndinə..

- Hə, yorğun adam üçün bu uzunluqda yolu getmək çətindir, - evin sahibi, bayaqkı kişi mərhəmətlə dedi - Ona görə də gileylənməyin yeri yoxdur, biz ona yatmağa yer verməliyik.

Hiss etdim ki, qız qadının yanına getdi. Qızın ona nə dediyini eşitmədim. Yavaşca bir neçə söz dedi. Danışanda balaca, incə əlini də kök qadının əli üstünə qoydu. Görəsən, onun əlində sehrli güc var idi? Qadının üzünün ifadəsi hiss ediləcək tərzdə dəyişdi, o mehribablıqla dedi:

- Hə, burdan G. kəndinə çox uzaqdır. Yəqin ona bir yer taparıq. Şam etmisiniz? - o soruşdu.

Mən ona “yox” cavabını verdim.

Qadın heç bir söz demədən mənə stol arxasına keçməyi təklif etdi. Stolun üstünə soyutma ət, təzə çörək, bir kasa da süd qoydu. Qadın stolun üstünə yemək qoyanda mən də müşahidə aparırdım. Bu cavan qızla otağdakı başqa adamlar arasında qeyri-adi bir ziddiyyət vardı. Orta yaşlı qadınla cavan qız bir-birinə oxşayırdı. Güman etdim ki, onun anasıdır.

Mən yemək yeməyə başlayanda döşəmə üstündə pişik balası ilə oynayan uşaqlar mübahisə etməyə başladılar.

- Con! Rəd ol get yat! - atası bərkdən, acıqlı səslə uşaqlardan birinə dedi.

Ancaq atasının sözünü eşidən Con onun dediyinə əməl etmədi.

- Məni eşitmirsən?! Rəd ol yerinə! - acıqlı ata təkrar etdi.

- Mən yatmaq istəmirəm, - uşaq ağladı.

- Sənə deyirəm ki, get, bu dəqiqə!

Uşaq hələ də addım atmaq istəmirdi. Balaca uşaq sanki öz hərəkətiylə üsyan edirdi. Elə bu vaxt uşağın bacısı - mən belə güman edirdim - otağa girdi, aşağı əylib uşağın əlini əlinə aldı. Heç bir kəlmə söz də demədi. Ancaq balaca uşağın “üsyanı” dərhal yatırıldı. O ayağa durdu, bacısının yanından keçib getdi, həmin axşam mən daha onu görmədim.

Şam yeməyimi yeyib qurtarandan sonra qonşu onlara gəldi. Az keçmədi ki, qonşu ilə ev dahibi siyasi məsələləri müzakirə etməyə başladılar. Evin sahibi heç də sağlamfikirli deyildi, onun qonşusu isə hazırcavab və yalançı idi. Ev sahibi tez hirsləndi, qonşusuna ağır sözlər deməyə başladı. Qonşusu da ona cavabında daha ağır ifadələr işlətdi. Tezliklə mübahisıə qızışdı.

Onda bu cavan qızın əlinin gücünü bir daha hiss etdim. Heç bilmədim o atasının yanına nə vaxt getdi. Bir də gördüm ki, atasının yanında dayanıb bir əliylə onun başını sığallayır. Tədricən disput iştürakçısının səsinin tonu aşağı düşdü, kişinin sözlərində qəzəb hiss olunmadı. Ancaq müzakirə yenə də davam edrdi. Qızın əli atasının başında olanda atasının sözlərindn acıqlı sözlər yoxa çıxırdı sanki. Çox maraqlı mənzərə idi. Mən bu cavan qızın əlinin gücünü görürdüm. Hiss edirdim. Belə yüngül, balaca əlin böyük gücü vardı. Ürəyimdə deyirdim ki, hər insanın beləcə incə, möcüzəli ələ ehtiyacı var

Neçə ilər əvvəl, həmin axşam mən o qızın əlinin və səsinin gücünü müşahidə etdim.

Səhər açılanda, səhər yeməyindən sonra mən yola düşməyə hazırlaşırdım. Bu vaxt ev sahibi bildirdi ki, əgər mən yarım saat da gözləsəm o məni G. kəndinə özünün at arabasında apara bilər. Çünki işiylə bağlı ora gedəcək. Onun sözlərindən çox məmnun oldum, təklifiylə razılaşdım. Dediyi vaxtda ev sahibinin at arabası evin qabağındakı yoldaydı. Məni çağırdı ki, gedib arabaya minim. Araba kobud görkəmli Kanada ponisinə qoşulmuşdu. Tərs ata oxşayırdı. Elə ki ev sahibi gəlib öz yerini tutdu, bütün ailə üzvləri bizi yola salmaq üçün darvazanın ağzında dayandılar.

- Dik - kişi atın yüyənini dartıb dedi.

Ancaq Dik yerindən tərpənmədi.

- Dik! Avaranın biri! Qalx! - kişi belə deyib atın qulağının dibinə qamçı ilişdirdi.

Qamçı da kömək etmədi. Dik yerindən tərpənmidi. İkinci qamçı dəydi ata. Səbirsiz ev sahibi bu dəfə qamçını möhkəm şappıldatdı.

Bu dəfə qızın qardaşı gəldi atın yanına. Dikin yüyənindıən tutdu, onu irəli dartdı. Belə vaxtlarda işlədilən bəzi sözlər işlətdi. Ancaq Dik tərsliyində qalmışdı. Qabaq ayağı ilə torpağı eşib durmuşdu. Bu vaxt səbr kasası daşan oğlan atın başına yumruqla vurdu. Onun yüyənnindən vəhşi kimi dartdı. Ancaq bunun da xeyri olmadı. Dikə heç nə təsir etmirdi.

- Con, belə etmə, - geri dönəndə ata tərəf gələn qızın şirin səsini eşitdim. O darvazanın yanından yola tərəf gəlirdi. Ata çatan kimi oğlanı atdan uzaqlaşdırdı. Heç bir güc işlətmədi. Oğlanın qolundan tutdu, oğlan da ona itaət etdi.

İndi qızın yumşaq, incə əli poninin boynunda idi. Alçaqdan bir neçə söz dedi. Dərhal tərs at hərəkətə gəldi.

- Yazıq Dik! - qız dedi və atın boynunu tumarladı.

- İndi, get, get! - qız dedi. Onun yüyənini çəkdi. Poni qıza tərəf döndü. Başını qızın qoluna sürtdü. Biriki saniyə... Sonra qulaqlarını şəkləyib getməyə başladı.

- Onun əlinin nə sehrli gücü var! - yol gedəndə qızın atasına dedim.

Kişi bir müddət üzümə baxdı, sanki mənim sözlərim onu təəccübləndirmişdi. Sonra onun üzünün ifadəsi dəyişdi.

- O çox yaxşıdır! Hamı onu sevir!

Onun əlinin sirri bunda idi? Onun qəlbinin gücü onun əlinə keçmişdi. Hətta onun əlinin sehri heyvana da təsir edirdi. Atasınn dedikləri həqiqət idi. Hələ də fikirləşirəm ki, qızın əlinin gücü onun sevilməsində di. Mən başqa vaxtlarda da belə güc görmüşdüm. Ancaq onun əli kimi möcüzəli əli ilk dəfə görürdüm.

Mən bu ələ sadəcə “İncə, möcüzəli ad” deyirdim.

İncə toxunuş. Mehriban söz. Ah! İradəsi möhkəm olanda çox az adam belə gücə inanır Ancaq belə əllərin güclü təsiri var. Danışdığım bu hekayə bizə dərs olmurmu?

**İngilis dilindən tərcümə etdi: Sevil Gültən**



■ Mary Roberts Rinehart